# İkitərəfli əlaqələr qarşılıqlı etimada əsaslanır





**Dövlətlərarası münasibətlər çox zaman ortaq dəyərlər, qarşılıqlı maraqlar və sınaqlardan çıxmış dostluq bağları üzərində qurulur. Bu baxımdan, Azərbaycan və Ukrayna arasında əlaqələr xüsusi örnək təşkil edir. Hər iki ölkə XX əsrin sonlarında müstəqilliklərini bərpa edərək suveren dövlət quruculuğu yolunda çətin, lakin şərəfli mərhələyə qədəm qoymuşdur. Azərbaycan və Ukrayna zaman keçdikcə siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığı dərinləşdirmişlər.**

Azərbaycan və Ukrayna arasında rəsmi diplomatik əlaqələr 6 fevral 1992-ci ildə qurulmuş, ötən 30 ildən artıq müddətdə dinamik şəkildə inkişaf edərək bugünkü səviyyəsinə çatmışdır. Azərbaycan-Ukrayna münasibətlərinin siyasi gündəliyi hər zaman zəngin və intensiv olub. Dövlət və hökumət başçılarının, parlament nümayəndə heyətlərinin və xarici siyasət idarələri rəhbərlərinin qarşılıqlı səfərləri siyasi dialoqun dərinləşməsinə mühüm töhfələr vermişdir. Bu qarşılıqlı anlaşmanın təməlində isə beynəlxalq hüququn fundamental prinsiplərinə hörmət dayanır. Bu, təkcə sözdə deyil, əməldə də özünü büruzə verir. Məhz bu kontekstdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun mayın 25-də ukraynalı həmkarı Andrey Sibiqa ilə Bakıda keçirdiyi birgə mətbuat konfransında səsləndirdiyi fikirlər xüsusi əhəmiyyət kəsb edir: "Azərbaycan torpaqları işğal altında olanda Ukrayna da bizim ərazi bütövlüyümüzü tanıyıb". Nazir, eyni zamanda iki ölkə arasında parlamentlərarası əlaqələrin yüksək səviyyədə olmasını sevindirici hal kimi qiymətləndirib. Ukrayna tərəfi də öz növbəsində Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə birmənalı dəstək ifadə edir. Ukraynanın xarici işlər naziri Andrey Sibiqa həmin mətbuat konfransında bildirib: "Bizim üçün çox önəmlidir ki, Azərbaycan Ukraynanın suverenliyini dəstəkləyir. Bunun üçün Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirəm". Bu cür qarşılıqlı dəstək beynəlxalq arenada hər iki ölkənin mövqelərini gücləndirir. Andrey Sibiqanın Bakıya səfəri çərçivəsində Zəfər parkına və Şəhidlər xiyabanına baş çəkməsi, xüsusilə də Şəhidlər xiyabanında Azərbaycanın Milli Qəhrəmanı Viktor Seryoqinin məzarını ziyarət etməsi dərin rəmzi məna daşıyır. Bu, həm Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlara ehtiramın, həm də iki xalq arasında mövcud tarixi bağların təcəssümüdür.

Azərbaycan və Ukrayna beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) və GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova) kimi platformalarda bir çox məsələlərdə ortaq mövqedən çıxış edirlər. GUAM təşkilatı regional təhlükəsizlik, iqtisadi inteqrasiya və enerji layihələrinin həyata keçirilməsi baxımından xüsusi önəm daşıyır və hər iki ölkə bu formatın potensialının daha da artırılmasında maraqlıdır. Rusiya-Ukrayna müharibəsinin başladığı ilk günlərdən etibarən Azərbaycan Ukraynaya dəstəyini ifadə etmişdir. Bu dəstək həm siyasi, həm də humanitar sahələrdə özünü göstərmişdir. Xarici işlər naziri Ceyhun Bayramov mətbuat konfransında bu məsələyə toxunaraq deyib: "Həmkarım Rusiya-Ukrayna müharibəsində son vəziyyətlə bağlı fikirlərini bölüşdü. İlk olaraq bizim arzumuz atəşkəsin əldə edilməsidir. Münaqişənin siyasi-hüquqi yollarla həllinin tərəfdarıyıq. Mayın 15-də Türkiyədə keçirilən danışıqları müsbət dəyərləndiririk". Nazir, həmçinin Azərbaycanın uzunmüddətli sülhün əldə olunmasını arzuladığını bildirib və müharibənin ilk günlərindən ölkəmizin Ukrayna tərəfinə bir çox sahələrdə dəstək göstərdiyini xatırladıb. Bu dəstək konkret addımlarda özünü göstərmiş, Azərbaycan Ukraynaya dəfələrlə humanitar yardımlar göndərmişdir. Bu yardımlar dərman preparatları, tibbi ləvazimatlar, qida məhsulları və digər zəruri ehtiyacları əhatə etmişdir. Bundan əlavə, Azərbaycan Ukraynanın İrpen şəhərinin bərpasında iştirak edir ki, bu da iki ölkə arasında həmrəyliyin bariz nümunəsidir. Ukrayna tərəfi də bu dəstəyi yüksək qiymətləndirir.



Azərbaycan və Ukrayna arasında iqtisadi əməkdaşlıq geniş potensiala malikdir. İki ölkə arasında ticarət dövriyyəsinin artırılması, investisiya qoyuluşlarının təşviqi və birgə layihələrin həyata keçirilməsi üçün əlverişli imkanlar mövcuddur. Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Ukrayna enerji bazarındakı fəaliyyəti bu əməkdaşlığın önəmli komponentlərindən biridir. SOCAR Ukraynada yanacaqdoldurma məntəqələri şəbəkəsini genişləndirməklə, ölkənin enerji təchizatında mühüm rol oynayır. Energetika sahəsi ümumilikdə ikitərəfli əlaqələrin strateji istiqamətlərindən hesab olunur. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu Ukrayna üçün də yeni perspektivlər açır. Ukrayna Azərbaycanın enerji resurslarının Avropa bazarlarına nəqlində tranzit ölkə kimi iştirak etməkdə maraqlıdır. Bu kontekstdə Andrey Sibiqa tərəfindən səsləndirilən fikir diqqətəlayiqdir: "Ölkəmiz Azərbaycanın Qafqazda enerji habına çevrilməsinə dəstək verməsinə hər zaman hazırdır". Bu, Ukraynanın Azərbaycanın regional enerji mərkəzi kimi rolunu dəstəklədiyini və bu istiqamətdə əməkdaşlığa hazır olduğunu göstərir. Odessa-Brodi neft kəməri layihələrinin potensialı, eləcə də yeni nəqliyyat-enerji dəhlizlərinin inkişafı bu əməkdaşlığa yeni təkan verə bilər.

Nəqliyyat və tranzit sahəsi də əməkdaşlıq üçün geniş üfüqlər vəd edir. Azərbaycanın təşəbbüskarı olduğu Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Ukrayna üçün əlavə imkanlar yaradır. Bu dəhlizlərin sinerjisi regionda ticarət axınının şaxələndirilməsinə və həcminin artırılmasına xidmət edə bilər. Müharibə başa çatdıqdan sonra Ukraynanın yenidən qurulması prosesi beynəlxalq birliyin birgə səylərini tələb edəcək. Azərbaycan bu prosesdə Ukraynaya dəstək göstərməyə hazır olduğunu ifadə edib. Andrey Sibiqa bu xüsusda deyib: "Ukraynanın müharibədən sonra bərpası böyük proses olacaq və burada Azərbaycanın dəstəyini gözləyirik. Xüsusilə minatəmizləmə sahəsində əməkdaşlığa üstünlük veririk". Minatəmizləmə sahəsi Azərbaycan üçün də həssas məsələdir və ölkəmizin bu sahədə təcrübəsi Ukrayna üçün faydalı ola bilər. Azərbaycan şirkətlərinin Ukraynanın infrastrukturunun bərpasında, şəhərlərin yenidən qurulmasında iştirakı üçün böyük potensial mövcuddur. Azərbaycanın regionda həyata keçirdiyi irimiqyaslı layihələr və iqtisadi inkişaf modeli beynəlxalq tərəfdaşları, o cümlədən qonşu dövlətlər tərəfindən yüksək qiymətləndirilir. Regional əməkdaşlıq və qonşuların Azərbaycanın inkişafına verdiyi müsbət rəy, ölkəmizin Ukrayna kimi digər tərəfdaşlarına da yardım əlini uzatmaq potensialını və etibarlılığını bir daha təsdiqləyir.

Azərbaycan və Ukrayna xalqları arasında tarixi və mədəni bağlar mövcuddur. Ukraynada çoxsaylı və fəal Azərbaycan diasporu fəaliyyət göstərir. Onlar Ukraynanın ictimai-siyasi, iqtisadi və mədəni həyatına inteqrasiya etməklə yanaşı, iki ölkə arasında dostluq körpülərinin möhkəmlənməsinə də töhfə verirlər. Eyni zamanda Azərbaycanda da Ukrayna icması yaşayır və fəaliyyət göstərir. Qarşılıqlı mədəniyyət günlərinin, sərgilərin, konsertlərin, elmi konfransların keçirilməsi, təhsil sahəsində tələbə və müəllim mübadiləsinin genişləndirilməsi xalqlar arasında qarşılıqlı anlaşmanın daha da dərinləşməsinə xidmət edir. Gənclər arasında əlaqələrin gücləndirilməsi, birgə layihələrin həyata keçirilməsi gələcək nəsillərin bu dostluq və tərəfdaşlıq ənənələrini davam etdirməsinə zəmin yaradır. Bütün müsbət dinamikaya baxmayaraq, Azərbaycan-Ukrayna münasibətlərinin daha da inkişaf etdirilməsi üçün istifadə olunmamış geniş potensial mövcuddur. Ticarət dövriyyəsinin həcminin artırılması, iqtisadiyyatın qeyri-neft sektorunda əməkdaşlığın şaxələndirilməsi, birgə müəssisələrin yaradılması və innovasiya sahəsində əməkdaşlıq prioritet istiqamətlər olaraq qalır. Nəqliyyat infrastrukturunun sinxronlaşdırılması və tranzit prosedurlarının daha da sadələşdirilməsi ticarət əlaqələrinin genişlənməsinə əlavə stimul verə bilər. Regional təhlükəsizlik mühitindəki dəyişikliklər hər iki ölkəni yeni çağırışlarla üz-üzə qoyur. Bu şəraitdə təhlükəsizlik məsələləri üzrə dialoqun və əməkdaşlığın gücləndirilməsi, beynəlxalq terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər transmilli təhdidlərə qarşı birgə mübarizənin effektivliyinin artırılması vacibdir.

Azərbaycan və Ukrayna arasındakı münasibətlər qarşılıqlı hörmət, etimad üzərində qurulmuşdur. Son dövrlərdə yüksək səviyyəli qarşılıqlı səfərlər, o cümlədən Ukrayna xarici işlər naziri Andrey Sibiqa və Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov arasında mayın 25-də keçirilən görüş və razılaşmalar, ikitərəfli əlaqələrin gələcəyinə nikbin baxmağa əsas verir. Azərbaycan və Ukrayna regional sülhün, sabitliyin və tərəqqinin təmin olunmasına mühüm töhfələr verirlər.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**

Respublika .- 2025.- 3 iyun (№ 114).- S.16.